UOT 37.01.

***Leyla Qabil qızı Orucova,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# TARİX DƏRSLƏRİNDƏ MƏNTİQİ TƏFƏKKÜR PROSESLƏRİNİN İNKİŞAFINA YÖNƏLMİŞ METODLARDAN İSTİFADƏ

***Лейла Габил гызы Оруджова,***
*Азербайджанский Государственный Педагогический Университет*

# ИСПОЛЬЗОВАНИЕ МЕТОДОВ, НАПРАВЛЕННЫХ НА РАЗВИТИЕ ПРОЦЕССОВ ЛОГИЧЕСКОГО МЫШЛЕНИЯ НА УРОКАХ ИСТОРИИ

***Leyla Gabil Orujova,***
*Azerbaijan State Pedagogical University*

# USE OF METHODS AİMED AT THE DEVELOPMENT OF LOGİCAL THİNKİNG PROCESSES AT HİSTORY LESSONS

**Xülasə:** Məqalədə problemin aktuallığı əsaslandırılıb və məntiqi təfəkkür proseslərinin inkişafına yönəlmiş metodlardan istifadənin təlimin keyfiyyətinin yüksəlməsinə göstərdiyi təsir öz əksini tapmışdır. Tarix dərslərində məntiqi təfəkkürlə bağlı mövzuların tədrisinin didaktik imkanları və metodik yolları verilib.
***Açar sözlər:*** *fəal təlim, interaktiv metod, məntiqi təfəkkür, təlim üsulu, interaktivlik*

**Резюме:** В статье обоснована актуальность проблемы, а также показано использование методов, направленных на развитие логического мышления, и их влияние на повышение качества обучения. Представлены дидактические возможности и методические пути обучения, способствующие развитию логического мышления на уроках истории.
***Ключевые слова:*** *активное обучение, интерактивный метод, логическое мышление, метод обучения, интерактивность*

**Summary:** This article has been based on the urgency of problem and the usage of method which helps to improve the process of logical mentality and its affect which helps increasing of teaching quality has been described. In the history lesson didactic opportunity and methodic ways of teaching of lesson connected with logical mentality has been showed.
***Key words:*** *active learning, interactive method, logical thinking, learning method, interactivity*

Müasir təhsil sistemində ümumtəhsil məktəblərində təlimin keyfiyyətini yüksəltmək üçün yeni daha səmərəli metodlar axtarılmaqdadır.

Keyfiyyətli təhsil prosesinin əsas tərkib hissələrindən biri dərsin təşkilidir: onun mərhələləri, təlimin forma, üsul və metodlarıdır; onun qurulması optimal düzgün həllin tapılmasıdır (1, s. 17).

Təlimdə yüksək nəticənin əldə edilməsi təlim metodunun düzgün seçilməsi və tətbiqindən asılıdır.

Təlim metodu tədris prosesinin çox mürəkkəb komponenti olub, müəllim və şagirdlərin fəaliyyətinin bütün sahələrinə xidmət edir. Təlim metodu müəllim və şagirdlərin tədris-tərbiyə vəzifələrinin həllinə istiqamətlənmiş qarşılıqlı fəaliyyətinin qaydaya salınmış yoludur (2, s. 41).

Müasir dövrdə tarix dərslərində məntiqi təfəkkür proseslərinin inkişafına yönəlmiş metodlardan geniş istifadə olunur. Belə ki, təlim prosesinin səmərəliliyinin yüksəldilməsinə şagirdlərdə təfəkkürün fəallaşdırılması böyük təsir göstərir.

Şagirdlərin qavranılan konkret tarixi materialdan nəyi və necə mənimsəmələri onların təfəkkür fəaliyyətindən, qavrayışların məqsədə istiqamətləndirilməsindən çox asılıdır (3, s. 124).

İdrak fəaliyyətinin gedişində şagirdlərdə məntiqi təfəkkür inkişaf edir ki, bu da şagirdləri

düşünməyə və müstəqil qərarlar çıxarmağa sövq edir.

Təfəkkürün məntiqi forması - fikrin quruluşudur (strukturudur), onun hissələri, ünsürləri arasındakı əlaqə üsuludur (4, s. 41).

Məntiqi təfəkkür proseslərinin inkişafına yönəldilmiş metodların aşağıdakı texnikaları var:

- 《Alqoritmin çıxarılması-analizdən sintezə»
- «Ən mühümü»
- «Tapşırıqlar qrupu üçün sujet əsasının yaradılması»
- Qaydalara əsasən oyunlar: oyun- tapmaca, oyun-yarış.
- Alqoritm üzrə təsvir (zəncirlər) (5, s. 54).

Tədqiqatın aparılması zamanı texnikanı seçərkən müəllim hər bir texnikanın əsas xüsusiyyətlərini öyrənməli və onu dərsin məqsədlərinə uyğun seçməlidir.

X sinif ümumi tarix kursunda "Osmanlı dövləti" mövzusunu keçərkən məntiqi təfəkkür proseslərinin inkişafına yönəldilmiş metodları tətbiq etməklə dərsi aşağıdakı şəkildə qura bilərik.

**Mövzu:** "Osmanlı dövləti".

**Standart:** 2.1.1.

**Məqsəd:** XVI-XVIII əsrlərdə Osmanlı dövlətinin sosial-iqtisadi və siyasi həyatında baş verən dəyişiklikləri qiymətləndirmək.

**İş üsulu:** Məntiqi təfəkkür prosesinin inkişafına yönəlmiş iş üsullarından istifadə. «Ən mühümü», yarış oyunları: "Kim daha çox?".

**İş forması**: qruplarla iş.

**Resurslar:** İKT, dərslik, iş vərəqləri, xəritə.

Dərsin gedişi:

**Motivasiya, problemin qoyulması** (5 dəq.) Bu mərhələdə biz İKT-dən istifadə etməklə proyektor vasitəsilə ağ lövhədə "Fateh 1453" filmindən kiçik həcmli fraqment göstərə bilərik. Daha sonra şagirdlərə yönəldici suallar verə bilərik.

**Tədqiqat sualı:** Osmanlı dövlətindəki XVI əsrin yüksəlişi XVIII əsrdə necə tənəzzülə çevrildi?

Bundan sonra müəllim şagirdləri yeni mövzu barədə məlumatlandırır, daha sonra şagirdləri qruplara bölür və məntiqi təfəkkür prosesinin inkişafına yönəlmiş «Ən mühümü» və "Kim daha çox?" yarış oyununa dəvət edir.

**Tədqiqatın aparılması:** (15 dəq.) Şagirdlər 4 qrupa bölünür. Hər bir qrupa vatman kağızlardan ibarət iş vərəqləri verilir. Şagirdlər onlara verilən vaxt ərzində XVIII əsrdə Osmanlı imperiyasının tənəzzülünün daxili və xarici səbəbləri ilə bağlı daha çox və ən mühüm faktları yazmağa çalışırlar.

**Məlumat mübadiləsi:** (3 dəq.) Bu mərhələdə qruplar tapşırıq yerinə yetirildikdən sonra öz işlərini lövhədən asaraq təqdimatını keçirirlər.

**Məlumatın müzakirəsi və təşkili**: (12 dəq.) Müzakirələr zamanı hansı qrupun daha çox və önəmli səbəb yazdığı müəyyənləşdirilir. Şagirdlər təxminən aşağıdakı səbəbləri müəyyənləşdirməlidirlər.

| **Daxili səbəblər** | **Xarici səbəblər** |
|---|---|
| 1. Hakim sülalənin nüfuzdan düşməsi və getdikcə artan saray çevrilişləri. | 1. Qərbi Avropada kapitalizmin inkişafı. |
| 2. Məmurların özbaşınalığı və idarə sisteminin pozulması. | 2. Coğrafi kəşflər nəticəsində beynəlxalq ticarətdə mövqeyin itirilməsi. |
| 3. Vergilərin artması, təsərrüfatın tənəzzülü və xəzinə gəlirlərinin azalması. | 3. Qərbi Avropa dövlətlərinin kapitulyasiya hüquqlarının genişlənməsi. |
| 4. Timar və ziyamət sisteminin pozulması və dövlətin hərbi qüvvəsinin azalması. | 4. Qərbi Avropa ölkələrinin koalisiyası, Şərqdə isə Səfəvilərlə müharibələrin aparılması. |
| 5. Elm və texnika nailiyyətlərinin zəif tətbiq olunması. | 5. Avropa dövlətləri tərəfindən Osmanlı mülklərinin bölüşdürülməsinin başlanması. |

**Nəticənin çıxarılması və ümumiləşdirmə:** (2 dəq.) Müzakirə başa çatdıqdan sonra şagirdlərin gəldiyi nəticələr ümumiləşdirilir. Bu zaman dərsin məqsədi və tədqiqat sualı nəzərə alınmalıdır.

**Yaradıcı tətbiqetmə**: (3 dəq.) “XVI-XVIII əsrlərdə Osmanlı dövləti” mövzusunda esse yazın.

**Qiymətləndirmə və ya refleksiya:** (5 dəq.) Dərsin sonunda müəllim şagirdlərin biliklərini aşağıdakı meyarlar əsasında qiymətləndirir.

| Meyarlar | I | II | III | IV |
|---|---|---|---|---|
| İzahetmə | | | | |
| Təqdimetmə | | | | |
| Əsaslandırma | | | | |
| Əməkdaşlıq | | | | |

Nəticə olaraq deyə bilərik ki, tarix dərslərində məntiqi təfəkkür proseslərinin inkişafına yönəlmiş metodlardan səmərəli istifadə şagirdləri idrak fəallığına sövq edir ki, bu da təlimin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Müasir təlimin prinsiplərindən biri inkişafetdirici təlim prinsipidir ki, bu da şagirdlərdə məntiqi təfəkkürü formalaşdırır.

**Mövzunun aktuallığı.** Tarix dərslərində məntiqi təfəkkür proseslərinin inkişafına yönəlmiş metodlardan istifadə problemi az tədqiq olunub. Bu sahədəki boşluğun doldurulması xüsusi əhəmiyyət kəsb edir.

**Məqalənin nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, məqalədə irəli sürülən müddəalar tarixin tədrisi metodikası elminin məzmununu daha da zənginləşdirə bilər.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalədə əldə edilən nəticələrdən ümumtəhsil məktəblərinin tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

**Ədəbiyyat:**

1. Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları. Bakı, 2014.
2. Kərimov Y. “Təlim metodları”. Bakı, 2007.
3. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası. Bakı, 2011.
4. İsrafilov M. Məntiq: nəzəriyyə və praktika. Bakı, 2005.
5. Veysova Z. Fəal/İnteraktiv təlim: Müəllimlər üçün metodik vəsait. Bakı, 2007.

**E-mail**: leyla_1989orucova@mail.ru
**Rəyçilər:** *ped.elm.dok., prof.* M.M. Əmirov,
*ped.ü.fəls.dok.* D.M. Musayev
**Redaksiyaya daxil olub:** 07.11.2018